## POS-terminallardan istifadə istehlakçı hüquqlarının qorunmasında vacib amildir

«Nağdsız ödənişlər: istehlakçı hüquqlarının qorunmasında dövlətin tənzimləyici rolu» mövzusunda çıxış edən İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin şöbə müdiri

***Zahid Şərifov demişdir:***

- Maliyyə əməliyyatlarının nağdsız formada aparılması, pulun alıcıdan satıcıya plastik kartlarla, bank vasitəsilə ödənişi istehlakçılara müəyyən üstünlüklər verir. Nağdsız ödəniş sistemindən istifadə istehlakçıları külli miqdarda nağd pul vəsaitini özü ilə gəzdirmək məsuliyyətindən azad edir, ticarət zamanı əlavə vaxt itkisini aradan qaldırır. Bundan əlavə, nağdsız hesablaşmalar kart vasitəsilə həyata keçirildiyindən, bütün əməliyyatların dəqiq uçotunun aparılması reallaşır.

Digər vacib məqam isə bundan ibarətdir ki, nağdsız hesablaşmalar vergi ödəyiciləri tərəfindən maliyyə-təsərrüfat fəaliyyətinin uçotunun düzgün aparılması, vergiyə cəlb olunan gəlirlərin dəqiq müəyyən edilməsi, şəffaflığın artırılması və s. məsələləri həll edir.

Plastik kart vasitəsilə alınan malları geri qaytarmaq da asandır. İstehlakçılar pozulmuş hüquqlarının bərpası üçün bu üstünlükdən istifadə edə bilirlər. «İstehlakçıların hüquqlarının müdafiəsi haqqında» Qanunda deyilir ki, istehlakçının müraciətinə yalnız qəbz və kassa çeki təqdim edildikdə baxılır. Ödəniş kart ilə həyata keçirildikdə bu problem dərhal aradan qalxır. İstehlakçılara göstərilən xidmətlərin daha çevik və şəffaf mexanizmlər əsasında təmin edilməsi məqsədilə obyektlərdə bankomatların və POS-terminalların quraşdırılması müasir dövrün çağırışı olmaqla yanaşı, həm də mövcud qanunvericiliyin tələbidir. Nazirlər Kabinetinin 15 aprel 1998-ci il tarixli, 80 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında ticarət, məişət və digər növ xidmət (iş görülməsi, xidmət göstərilməsi) Qaydaları»na əsasən, alıcılar aldıqları mallara görə nağd pul verməklə, yaxud bank idarələrinin verdikləri çek kitabçaları, hesablaşma çekləri və kredit kartları vasitəsilə - qeyri-nağd formada hesablaşa bilərlər. Ona görə də ticarət, ictimai iaşə və digər xidmət obyektləri istehlakçıların nağdsız formada əməliyyatlar aparmasına şərait yaradılmasını sürətləndirməlidir.

Təəssüflə qeyd etmək lazımdır ki, son illər ölkəmizdə POS-terminal və bankomat şəbəkəsinin əhəmiyyətli dərəcədə genişlənməsinə baxmayaraq, kartlardan lazımi səviyyədə istifadə olunmur. Burada səslənən fikirlərlə tamamilə razıyam ki, daha səmərəli nəticələr əldə etmək üçün insanlar arasında geniş maarifləndirmə işi aparılmalıdır. Dövlət qurumları kütləvi informasiya vasitələri - xüsusilə radio və televiziya vasitəsilə nağdsız ödənişlərin üstünlüklərini insanlara geniş izah etməlidirlər. Dövlət Xidməti bu zərurətdən çıxış edərək ayda bir dəfə Bakıda və respublikanın regionlarında ali və orta ixtisas məktəblərinin tələbələri ilə görüşlər təşkil edir, nağdsız ödənişlərin vacibliyi və əhəmiyyəti onlara geniş izah olunur.

Bir çox hallarda guya POS-terminalların işləməməsi barədə əsassız bəhanələr gətirilir. Lakin araşdırmalar göstərir ki, vergidən yayınmaq məqsədilə POS-terminallar bəzi hallarda vətəndaşlardan gizlədilir və ya satıcıların POS-terminallardan istifadə bacarığının olmadığı üzə çıxır. Bu mənada, POS-terminalların quraşdırılması ilə yanaşı, ondan istifadə məsələlərinə də nəzarət gücləndirilməlidir. Ümumilikdə isə görülən tədbirlər deməyə əsas verir ki, zaman keçdikcə nağdsız ödənişlər Azərbaycanda da vətəndaşların həyat tərzinə çevriləcək.